Azərbaycan Dövlət Rus Dram Teatrında təşkil olunan tədbirdə Mərkəzin rəhbərliyi, valideynlər və dərnək üzvləri iştirak ediblər. Ənənəvi hesabat konsertini keçirməkdə məqsəd şagirdlərin 1 il ərzində əldə etdiyi bacarıqları nümayiş etdirmək, onlarda bu sahəyə olan meyili və həvəsi artırmaqdan ibarətdir.

Konsertdə mərkəzin dərnək üzvləri "Qaval", "Vağzalı", "İncəlik", "Yallı" və Azərbaycanın digər milli rəqslərini, eyni zamanda dünya xalqlarının rəqslərini ifa ediblər. Mərkəzin "Mahnı teatrı"nın vokal qrupunun üzvləri də ecazkar ifaları ilə tədbir iştirakçılarının zövqünü oxşayıblar.